

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 102 (24.239)

*8 iyun 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Dövlət Proqramının icrası ilə bağlı müşavirə keçirilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib.

İyunun 7-də “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı müşavirə keçirilib.

Müşavirədə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” təsdiq olunub. Dövlət Proqramı olduqca əhatəli və geniş spektrə malikdir.



Səlahiyyətli nümayəndə bildirib ki, gələn il Naxçıvan Muxtar Respublikasının 100 illiyi qeyd olunacaq. Heç təsadüfi deyil ki, muxtariyyətin 100 illik tədbirləri çərçivəsində Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətində Naxçıvan amili xüsusi qeyd olunmalıdır. Muxtar respublikanın 50 illik dövrü məhz Onun siyasəti ilə formalaşıb. Xüsusilə Ümummilli Liderin 1990-1993-cü illərdə Naxçıvanda olması nəinki Naxçıvan Muxtar Respublikasını, eləcə də Azərbaycan Respublikasını böyük bir təhlükədən xilas edib. Qarabağda və daha öncəki illərdə Zəngəzurda nələrin baş verdiyinin şahidiyik. Zəngəzur torpaqlarımız hissə-hissə, parça-parça bizdən qoparılıb. Keçmiş Dağlıq Qarabağda 1988-ci ildə baş vermiş, süni şəkildə törədilmiş hadisələr nəticəsində isə torpaqlarımızın 20 faizi işğal olunmuşdu. Məhz Ulu Öndərin uzaqgörən siyasəti Naxçıvan Muxtar Respublikasını bu kimi bəladan xilas edib. Yeni yaranmış, heç bir ordusu və təcrübəsi olmayan bir dövlətə qarşı xəyanət və birləşmiş qüvvələrin fəaliyyəti nəticəsində işğal faktı reallaşdırılmışdı. 44 günlük müharibə dövründə ordunun hansı çətinliklərlə üzləşdiyinin şahidi ola bilərik. Lakin Azərbaycan Respublikası öz ordusunun gücünə arxalanaraq, heç bir kənar qüvvənin dəstəyi olmadan 30 ildən artıq davam etmiş reallığı dəyişdirib və yeni reallıq yaradıb. Bu gün Qafqazda Azərbaycan dövləti söz sahibidir və mövqeyi əsas rol oynayır. Bunun da əsasında Ümummilli Liderin uzaqgörən siyasətinin bəhrələri dayanır. Bu siyasətin uğurlu davamçısı kimi ölkə Prezidenti cənab İlham Əliyevin rolu əvəzolunmazdır. Həqiqətən, biz xoşbəxt xalqıq. Ona görə ki, məhz iki böyük şəxsiyyətin idarəetməsində Azərbaycan Respublikası daha güclü sosial-iqtisadi potensialı olan gələcəyə gedir. 2023-2027-ci illəri əhatə edən Dövlət Proqramının təsdiq olunması xüsusilə əlamətdardır. Proqramda 11 sahənin prioritet olaraq seçilməsi heç də təsadüfi deyil. Bu prioritet istiqamətlər məhz ölkə Prezidenti cənab İlham Əliyevin göstərişi sayəsində formalaşıb.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında yerli səviyyədə qəbul olunmuş Dövlət proqramları tətbiq olunurdu. Lakin istənilən nəticə yoxdur. Muxtar respublikada əldə olunmuş inkişaf isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səyi nəticəsində mümkün olub. Hər il Azərbaycan Respublikasının büdcəsindən 100 milyonlarla manat vəsait dotasiya şəklində Naxçıvan Muxtar Respublikasına ayrılıb. Təəssüf ki, bu dəstəyin qarşısında olduqca nöqsanlı iş aparılıb. Lakin ümumi xəttimiz, cənab Prezidentin formalaşdırdığı tapşırıqlar hər kəsə aydındır. Artıq muxtar respublikada struktur dəyişiklikləri aparılır. Bu dəyişikliklərin hədəfləri açıq-aydın görünür.

Səlahiyyətli nümayəndə Dövlət Proqramındakı 11 prioritet məsələ haqqında ətraflı danışıb, qarşıya qoyulan vəzifələrin icrasında aid dövlət qurumlarının üzərinə düşən vəzifələri diqqətə çatdırıb, Dövlət Proqramının qəbul olunmasına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıq edib.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın qəbulu ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının qüvvədə olan Dövlət proqramlarının ləğv edilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov məlumat verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli Naxçıvan Muxtar Respublikasının normativ-hüquqi aktlarının hüquqi ekspertizasının aparılması üzrə Komissiyanın yaradılması barədə çıxış edib.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov, təhsil naziri Rəhman Məmmədov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova ölkə Prezidenti tərəfindən müvafiq Dövlət Proqramının qəbul edilməsinin Naxçıvan ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb, dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

**“Şərq qapısı”**

## Naxçıvan Muxtar Respublikasının Dövlət proqramlarının ləğv edilməsi və icra vəziyyətinin yoxlanılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi ilə əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aşağıdakı fərman və sərəncamları ləğv edilsin:

1.1. “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2019-cu il 29 mart tarixli 162-V FR nömrəli Fərmanı;

1.2. “2018-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2018-ci il 2 mart tarixli 226-05/S nömrəli Sərəncamı;

1.3. “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 14 fevral tarixli 459-05/S nömrəli Sərəncamı;

1.4. “2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 17 fevral tarixli 460-05/S nömrəli Sərəncamı;

1.5. “Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 14 mart tarixli 7-06/S nömrəli Sərəncamı;

1.6. “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2021-ci il 28 yanvar tarixli 84-06/S nömrəli Sərəncamı;

1.7. “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2021-ci il 12 mart tarixli 95-06/S nömrəli Sərəncamı;

1.8. “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2021-ci il 15 mart tarixli 96-06/S nömrəli Sərəncamı;

1.9. “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2021-ci il 29 mart tarixli 100-06/S nömrəli Sərəncamı;

1.10. “Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2022-ci il 15 fevral tarixli 194-06/S nömrəli Sərəncamı.

2. Bu Fərmanın 1.1-ci-1.10-cu bəndlərində nəzərdə tutulmuş Dövlət proqramlarının 2023-cü il iyunun 1-dək olan icra vəziyyətinin, bu məqsədlə ayrılmış maliyyə vəsaitlərinin düzgün sərf olunmasının, Dövlət proqramlarından kənarlaşmaların olub-olmamasının araşdırılması məqsədilə “Naxçıvan Muxtar Respublikasında Dövlət proqramlarının icra vəziyyətinin yoxlanılması üzrə Komissiya” yaradılsın.

3. Komissiya:

3.1. Beş ay müddətində Dövlət proqramlarının icra vəziyyətinin araşdırılmasını başa çatdırıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məlumat versin;

3.2. Səlahiyyəti daxilində dövlət orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar barədə sorğu verilməsini və onlardan belə məlumatların alınmasını təmin etsin, habelə müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 7 iyun 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası normativ-hüquqi aktlarının hüquqi ekspertizasının aparılması üzrə Komissiyanın yaradılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası normativ-hüquqi aktlarının hüquqi ekspertizasının aparılması üzrə aşağıdakı tərkibdə ictimai əsaslarla fəaliyyət göstərən Komissiya yaradılsın:

**Komissiyanın sədri**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri

**Komissiyanın üzvləri:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsi müdirinin müavini

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Hüquq şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik bölməsinin rəisi

2. Komissiya normativ-hüquqi aktların ekspertizasını həyata keçirib ləğv və ya dəyişikliklər edilməsi təklif olunan aktlarla bağlı təkliflərini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 7 iyun 2023-cü il*

# Regional iqtisadiyyatın dayanıqlı inkişafı diqqət mərkəzindədir

## *Yeni Dövlət Proqramı Naxçıvan Muxtar Respublikasının çoxcəhətli sosial-iqtisadi inkişafının ilk əsaslı yol xəritəsi olacaq*

*Yeni iqtisadi şəraitdə ölkəmizdə həyata keçirilən inkişaf strategiyası, ilk növbədə, regionların sosial-iqtisadi inkişafının təmin edilməsi iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması və ixracyönümlü məhsul istehsalına keçməklə iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.*

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi nəticəsində qazanılmış uğurların miqyası və əhatə dairəsi xeyli genişləndirilmişdir.

Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni iqtisadi siyasət strategiyası həyata keçirilməyə başladı. Dövlət başçısının prezidentlik fəaliyyətində verdiyi ilk fərmanlar da məhz sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri və regionların sosial-iqtisadi inkişafı haqqında olmuşdur. Ölkə Prezidentinin “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” 2003-cü il 24 noyabr tarixdə imzaladığı Fərmanla müəyyən edilmiş sosial-iqtisadi inkişafın əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər bu sahədə əldə edilmiş nailiyyətləri daha da möhkəmləndirmişdir. Digər tərəfdən, iqtisadiyyatın bütün sahələrində inkişafa istiqamətləndirilmiş tədbirlərin ayrı-ayrı Dövlət proqramları çərçivəsində həyata keçirilməsi ümumi nəticədə səmərəliliyi xeyli artırmış, ümumi iqtisadi inkişafın mərkəzlə yanaşı, regionlara doğru istiqamətlənməsində müstəsna əhəmiyyət kəsb etmişdir.

Ötən dövr ərzində dövlət başçısı cənab İlham Əliyev Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarını təsdiq etdi. Regionların inkişafına dair uğurla icra edilən I, II, III, IV Dövlət proqramları Azərbaycanın müxtəlif bölgələrində inkişafın yeni əsaslarını yaratdı, tərəqqi prosesini növbəti uğurlu mərhələyə keçirdi, ölkədə iqtisadiyyatın diversifikasiyasına və onun dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına, infrastruktur və kommunal xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılmasına, əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsinə gətirib çıxardı. Həmin Dövlət proqramlarının uğurlu icrası nəticəsində ölkədə qeyri-neft sektorunun davamlı inkişafı, yeni müəssisələrin və iş yerlərinin yaradılması, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması ilə bağlı əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Ölkədə biznes mühitinin daha da yaxşılaşdırılmasının bir istiqaməti kimi sahibkarlığın inkişafına mühüm önəm verilib, sahibkarlara göstərilən elektron xidmətlərin əhatə dairəsi genişləndirilib. Güzəştli kreditlər hesabına investisiya layihələri maliyyələşdirilib və kiçik sahibkarlığın daha da inkişafı üçün müvafiq tədbirlər görülüb.

Azərbaycanın ayrılmaz hissəsi, ölkəmiz üçün strateji əhəmiyyəti olan Naxçıvan Muxtar Respublikası da ölkə Prezidentinin daim diqqətində olmuş və qəbul edilmiş bütün Dövlət proqramlarına uyğun yüksək inkişaf və tərəqqi yolu keçmişdir.

Prezident cənab İlham Əliyevin Naxçıvana səfərləri zamanı açılışını həyata keçirdiyi müxtəlif müəssisələr, reallaşan infrastruktur layihələri muxtar respublikada da dövlətimizin həyata keçirdiyi sosial-iqtisadi siyasətin müvəffəqiyyətlə tətbiq edildiyini deməyə əsas verir.

Bu inkişafın daha da genişlənməsi, muxtar respublikanın müasir dünya iqtisadiyyatına inteqrasiyası, regionda əhəmiyyətinin artması, bölgə əhalisinin rifahının yüksəldilməsi, bundan sonra daha da sürətlənəcəkdir. Bunu Prezident cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixdə imzaladığı Sərəncam ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda qarşıya qoyulan prioritetlərə əsasən əminliklə deyə bilərik.

Yeni Dövlət Proqramı muxtar respublikada iqtisadiyyatın bütün sahələrini əhatə edən, ümumilikdə, bölgənin müasir trendlərə uyğun inkişafının ilk əsaslı yol xəritəsi olacağını qeyd edə bilərik.

Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi, mövcud infrastrukturun və sosial xidmətlərin daha da yüksəldilməsi, əhalinin məşğulluğunun və maddi rifahının artırılması əsas prioritet kimi nəzərdə tutulmuşdur.

Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: ***“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”.***

Bəli, bu gün əminliklə deyə bilərik ki, Naxçıvan Muxtar Respublikası xalqımızın Ümummilli Lideri Heydər Əliyevin arzularının reallaşdığı möhtəşəm məkana çevrilməkdədir. Bu arzuları reallığa çevirən Prezident cənab İlham Əliyev Vətənə, xalqa xidmət yolu ilə qətiyyətlə irəliləyərək Azərbaycanın xoşbəxt gələcəyini inşa etməkdədir.

**Ülviyyə HƏMZƏYEVA**
*Azərbaycan Respublikası Milli Məclisinin deputatı*

# Azərbaycan Avropanın etibarlı “yaşıl enerji” tərəfdaşına çevrilir...

## *Bu tərəfdaşlığın möhkəmləndirilməsində Naxçıvanın da xüsusi payı olacaq*

*Dövlət başçısı cənab İlham Əliyevin keçirdiyi görüşlər, etdiyi səfərlər, apardığı danışıqlar Azərbaycanın beynəlxalq aləmdə siyasi nüfuzunun, iqtisadi qüdrətinin daha da artırılmasına, tərəfdaşlıqların etibarlığına, əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə mühüm töhfələr verir. Bu baxımdan mayın 31-də Bakı Ekspo Mərkəzində keçirilən Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz – “Caspian Oil&Gas” və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – “Caspian Power” sərgilər də ölkəmizin Avropanın etibarlı enerji tərəfdaşına çevrilməsi yolunda atılan uğurlu addımlardan xəbər verdi...*



Sərgilərin rəsmi açılış mərasimində iştirak edən ölkə Prezidenti çıxışında 1994-cü ildə ilk neft-qaz sərgisinin keçirilməsinə, həmin il ölkəmizdə vəziyyəti kökündən dəyişən, xarici sərmayələrin cəlbinə geniş imkanlar açaraq iqtisadi sabitliyin təmin olunmasına səbəb yaradan “Əsrin müqaviləsi”nə toxundu, Bakı Enerji Həftəsinin qlobal əhəmiyyətə malik olduğunu vurğuladı: ***“...eyni zamanda onu da vurğulamaq istəyirəm və hesab edirəm ki, Bakı Enerji Həftəsi enerji sahəsində aparıcı beynəlxalq tədbirdir. Mənim sözümün təsdiqi o ola bilər ki, kimlər bu tədbirə öz məktublarını ünvanlayır – ABŞ Prezidenti Co Bayden və Böyük Britaniyanın Baş naziri Sunak. Bu onun göstəricisidir ki, bizim bu tədbir qlobal əhəmiyyətə malikdir. Bu fürsətdən istifadə edərək mən ABŞ Prezidentinə, Böyük Britaniyanın Baş nazirinə və onların buradakı nümayəndələrinə təşəkkürümü bildirmək istəyirəm ki, bizə xoş sözlər göndəriblər və onların sözləri bizi ruhlandırır”.***

Avropa İttifaqı ilə Azərbaycan arasında ötən ilin iyulunda imzalanan enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumuna, Cənub Qaz Dəhlizinin siyasi-iqtisadi çəkisinə, roluna diqqəti çəkən ölkəmizin başçısı Avropa İttifaqı-Azərbaycan tərəfdaşlığının müsbət məqamlarından, “BP” şirkəti ilə reallaşdırılan qaz hasilatı layihələrindən, enerji mənbələrindən, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi proseslərindən, nüfuzlu xarici sərmayədarların ölkə iqtisadiyyatına cəlbindən, Avropa ölkələri ilə əməkdaşlıq əlaqələrindən söhbət açdı. Qısa, lokanik, eyni zamanda dərin məzmun kəsb edən nitqdə diqqətçəkən mühüm məqamlardan biri də son illərdə ölkəmizin reallaşdırılması labüd, prioritet iqtisadi layihələrindən hesab olunan “yaşıl enerji” ilə bağlı idi. Dövlət başçısı qeyd etdi ki, ötən ilin dekabr ayında Buxarest şəhərində “yaşıl enerji”yə dair digər bir mühüm tədbir keçirildi. Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya bir araya gəldi və Avropa Komissiyasının Prezidenti də həmin tədbirdə iştirak etdi. Orada “yaşıl enerji”yə və transmissiyaya dair müvafiq sənəd imzalandı. Sitat: *“Əminəm ki, bu, qlobal əhəmiyyətə malik bir layihə olacaqdır. Bu layihə daha çox ölkələr və şirkətlər cəlb edəcəkdir. Biz artıq təşkilat komitəsinin ilk iclasını keçirdik və razılıq əldə olundu. Belə ki, layihə çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorundan əldə olunacaq külək enerjisini ötürücü xətlər və Qara dənizin dibi ilə çəkiləcək sualtı kabel vasitəsilə Avropa bazarlarına nəql etmək nəzərdə tutulur. Biz indi elə bir mərhələdəyik ki, layihənin texniki-iqtisadi əsaslandırılması həyata keçirilir. Hesab edirik ki, bu layihə çərçivəsində ən azı 4 qiqavat “yaşıl enerji”ni Avropaya nəql edə biləcəyik ki, bu da bizim əlavə töhfəmiz olacaq”.*

Şübhəsiz ki, ölkəmizin “yaşıl enerji” potensialı, alternativ enerji mənbələrindən geniş istifadə, ixrac imkanlarının artırılması barədə danışdıqda Naxçıvan Muxtar Respublikasının bu sahədəki töhfələrini dəyərləndirməmək mümkünsüzdür. Cari il aprelin 5-də Azərbaycan Respublikası energetika nazirinin müavini Elnur Soltanovun Naxçıvana səfəri zamanı “Şərq qapısı” qəzetinə müsahibəsində də qeyd etdiyi kimi, burada bəzi illərdə bərpa olunan mənbələrdən əldə edilən elektrik enerjisi ənənəvi mənbələrdən əldə edilən elektrik enerjisini keçib. Dünya üzrə baxsaq, bu, inanılmaz dərəcədə gözəl göstəricidir. Almaniya kimi ölkədə bu, 40 faizdir, amma Naxçıvanda bunun 60 faizə çatdığı illər olub. Düzdür, indiki quraqlıq bu rəqəmi dəyişdirir, amma Naxçıvandakı Günəş radiasiyası dünyada mövcud olan ən yaxşı radiasiyalarla müqayisə oluna bilər...

Ölkə Prezidenti cənab İlham Əliyev də çıxışlarında dəfələrlə bu məqama toxunub, Naxçıvanın “yaşıl enerji” zonasına çevirmək planlarının olduğunu, burada Su, Günəş Elektrik stansiyalarının tikintisi üçün böyük potensialın mövcudluğunu vurğulayıb. Dövlətimizin başçısı cari il martın 13-də Berlində Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşdə bu barədə deyib: ***“Ola bilsin, yaxın vaxtlarda 500 meqavatlıq günəş elektrik enerjisi stansiyasının tikintisi ilə bağlı bəzi addımlarımız olsun. Eyni zamanda Naxçıvanda ənənəvi elektrik stansiyaları da çox münasibdir. Çünki Naxçıvanın böyük ixrac potensialı mövcuddur, onun Türkiyə və İranla sərhədi var. Hər iki ölkədə elektrik enerjisinə artan tələbat var”.*** Bu məqamda xüsusi vurğulamaq lazımdır ki, ölkə rəhbərinin tapşırığına əsasən ötən dövrdə Naxçıvan Muxtar Respublikasında “yaşıl enerji” konsepsiyasının tətbiqi, muxtar respublikanın elektroenergetika və qaz təchizatı sistemlərinin ölkə sistemlərinə inteqrasiyası və aidiyyəti digər məsələlər ilə bağlı müvafiq araşdırmaların aparılması və təkliflərin hazırlanması məqsədilə işçi qrupu yaradılıb, qısa və uzun dönəmli planlar hazırlanıb, müəyyən istiqamətlər üzrə bir sıra tədbirlər reallaşdırılıb. İlkin olaraq Naxçıvanda görüşlər keçirilib, müzakirələr aparılıb, aidiyyəti üzrə tapşırıqlar verilib. Sonra investorlar, bərpa olunan enerji sahəsində fəaliyyət göstərən tanınmış, dünya səviyyəli xarici şirkətlərin yerli nümayəndəliklərinin rəhbərləri muxtar respublikaya gələrək kameral araşdırmalar aparıblar. Təxminən, 8 min hektardan çox ərazinin bərpa olunan enerji mənbələri stansiyalarının tikilməsi üçün bugünkü gündə tam şəkildə yararlı vəziyyətdə olduğu müəyyənləşib. Artıq bu istiqamətdə işlər məntiqi sonluqla nəticələnmək üzrədir. İyunun 3-də Bakı Enerji Həftəsinin sonuncu günü Naxçıvanda “Naxçıvan və Şərqi Zəngəzurun “yaşıl enerji” potensialı” mövzusunda xüsusi sessiyanın keçirilməsi, sessiya çərçivəsində imzalanan memorandumlarla dövlətimiz muxtar respublikanı “yaşıl enerji” zonasına çevirmək məqsədinə bir addım daha yaxınlaşdı. Sessiyada muxtar respublikanın elektrik enerjisi tələbatının üçdəbirinin bərpa olunan enerji hesabına ödəndiyini qeyd edən Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov Naxçıvanda 1500 MVt gücündə “yaşıl enerji” layihələrinin reallaşdırılmasının hədəfləndiyini bildirdi: “Bu gün burada “TotalEnergies” və Nobel Energy Management” şirkətləri ilə ümumi gücü 900 MVt olan Günəş və külək enerjisi layihələri üzrə əməkdaşlıq sənədləri imzalayacağıq. Bu güclərin 650 MVt-ı məhz Naxçıvanda yaradılacaq”. Onu da qeyd etmək yerinə düşər ki, iyunun 2-də Şərur rayonunda gücü 3 meqavat olan yeni Günəş Elektrik Stansiyası fəaliyyətə başlayıb. Ümumilikdə, bu günədək muxtar respublikada elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində 169,8 meqavat gücündə 10 elektrik stansiyası, o cümlədən 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, 4,5 meqavat gücündə Heydər Əliyev Su Anbarı üzərində Su Elektrik Stansiyası, Ordubad rayonunda Gilançay üzərində 20 meqavat gücündə “Biləv” Su Elektrik Stansiyası, Şərur rayonu ərazisində 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyaları, Babək rayonunun Xalxal kəndi ərazisində 22 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası, Kəngərli rayonunda 5 meqavat gücündə, Şərur rayonunda 8 meqavat gücündə Günəş Elektrik stansiyaları, Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyası və 0,3 meqavat gücündə Culfa Külək Elektrik Stansiyası istifadəyə verilib. Hazırda tikilməkdə olan su elektrik stansiyalarının layihə gücü 51,6 meqavat təşkil edir...

İyunun 5-də ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncama əsasən muxtar respublikanın iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından, tranzit imkanlarından səmərəli istifadə etməklə mövcud çatışmazlıqların aradan qaldırılmasına, iqtisadi inkişafın sürətləndirilməsinə, əhalinin məşğulluğunun artırılmasına, maddi rifahın yüksəlməsinə təkan verəcək “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib ki, həmin mühüm əhəmiyyətli dövlət sənədində enerji təhlükəsizliyinin təminatı, bərpa olunan mənbələr hesabına ixrac imkanlarının genişləndirilməsi də prioritet istiqamətlər sırasında yer alıb. Belə ki, Dövlət Proqramının “Mövcud çağırışlar” hissəsində Naxçıvanda elektrik enerjisinin istehsalı və ixracı üzrə mövcud potensialdan istifadə etməklə yeni bərpa olunan enerji (əsasən, günəş) stansiyalarının, həmçinin istilik elektrik stansiyalarının tikintisi və eyni zamanda tezlik tənzimlənməsinin dayanıqlığının təmini, mövcud elektrik stansiyalarının və şəbəkəsinin təmiri, avtomatlaşdırılmış idarəetmə sisteminin qurulması vəzifələri qarşıya qoyulub. Dövlət sənədinin “Prioritet 6. Elektrik enerjisi istehsalının və ixracının artırılması” hissəsində qeyd olunur ki, Türkiyə ilə quru sərhədin mövcudluğu, həmçinin Azərbaycan-Türkiyə-Avropa elektrik dəhlizi layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikasının ölkənin əsas enerji sistemi ilə əlaqələndirilməsi imkanı, Türkiyəyə elektrik verilişi xəttinin çəkilməsi, elektrik enerjisi ixracı məqsədilə tezlik tənzimlənməsinin Türkiyə Respublikasının enerji sistemi vasitəsilə aparılması və Naxçıvan Muxtar Respublikasının enerji sisteminin Avropa Elektrik Ötürmə Sistemləri Operatorları Assosiasiyasının (ENTSO-E) şəbəkəsinə qoşulması üçün tədbirlər görülməsi Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi istehsalı və ixracı potensialını artıracaq, bu isə ölkənin əlavə enerji gücləri hesabına dünya bazarına (Türkiyəyə və Avropaya) elektrik enerjisi satmaq imkanlarını və alternativlərini genişləndirəcəkdir. Əminliklə demək olar ki, Dövlət Proqramında energetika sahəsində müəyyənləşdirilən strategiyaların, qarşıya qoyulan vəzifələrin uğurlu şəkildə icrası Naxçıvanın “yaşıl enerji” zonasına çevrilməsi prosesinə daha təsirli təkan verəcək...

Ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi enerji təhlükəsizliyi siyasəti çərçivəsində son illərdə Avropanın bir sıra ölkələrinə enerji ixracatı ilə bağlı əldə olunan razılaşmalar, xüsusilə də ötən il dekabrın 17-də Buxarestdə imzalanan “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” ölkəmizin yaxın gələcəkdə “yaşıl enerji” sahəsində Avropanın daha böyük, etibarlı tərəfdaşı olacağını deməyə əsas verir. Təbii ki, Şərqi Zəngəzur, Qarabağla yanaşı, güclü bərpa olunan enerji mənbələri potensialı, Avropa enerji sisteminə inteqrasiya olunmuş Türkiyə bazarına birbaşa çıxış imkanı ilə Naxçıvan da bu tərəfdaşlığa mühüm töhfələr verəcək.

✍ **Nail ƏSGƏROV**

## İqdır Sənaye və Ticarət Palatasının nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına işgüzar səfər edib



Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə baş tutan səfərdə sahibkarlar və Türkiyədən gələn nümayəndə heyətinin üzvləri iştirak ediblər. Əvvəlcə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunda Türkiyə nümayəndə heyəti ilə Baş konsul Asip Kayanın görüşü olub. Sonra heyət “ENNA” və “Ləzzət Biskvit və Şokolad Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal müəssisələrində istehsal prosesi ilə tanış olub. Tanışlıq zamanı müəssisədə gedən ümumi iş prosesinin mahiyyəti, məhsulların istehsal mərhələləri haqqında mütəxəssislər qonaqlara ətraflı məlumat veriblər. Həmçinin istehsal olunan məhsulların daxili bazarı təmin etməklə yanaşı, bir çox xarici ölkələrə də ixrac edildiyi bildirilib.

Naxçıvan Biznes Mərkəzini ziyarət edən qonaqlar muxtar respublikada istehsal edilən məhsullarla tanış olublar. Sonra Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev və nümayəndə heyəti, həmçinin nazirliyin nümayəndələri və muxtar respublikada fəaliyyət göstərən sahibkarlar arasında işgüzar görüş olub. Görüş zamanı ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafında dövlət başçılarının siyasi iradəsi və irəli sürdükləri təşəbbüslərin mühüm rol oynadığını deyən iqtisadiyyat naziri bildirib ki, müzakirə edilən məsələlər və aparılan danışıqlar iki qardaş ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsinə, sahibkarlar arasında işgüzar əlaqələrin inkişafına xidmət edir. Tarixi




dostluq, qarşılıqlı etimad əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri hər sahədə daim möhkəmlənir. Birgə səylərin iqtisadi sahədə əməkdaşlığı daha da genişləndirəcəyini və xalqlarımızın rifahına töhfə verəcəyini vurğulayan nazir qeyd edib ki, iqtisadi əməkdaşlıq Azərbaycan-Türkiyə arasındakı ikitərəfli əlaqələrinin ən mühüm istiqamətlərindən biridir. Son zamanlar bu əlaqələrdə müsbət dinamikanın şahidi oluruq. Naxçıvanda Türkiyənin işgüzar dairələri üçün qarşılıqlı maraq kəsb edən emal və istehsal imkanları var. Bu imkanlardan istifadə edərək hər iki ölkəyə qazanc gətirən işlər görmək mümkündür.

Azərbaycanla Türkiyə arasında ticarətin real potensialının daha geniş şəkildə əks olunacağını bildirən nazir Tapdıq Əliyev bu cür görüşlərin qarşılıqlı əməkdaşlığı daha da genişləndirəcəyinə ümidvar olduğunu vurğulayıb.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya və İqdır Ticarət və Sənaye Palatasının rəhbəri Kamil Arslan çıxışlarında iki ölkə arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib, əməkdaşlıq imkanlarına, həyata keçirilən layihələrə, ticarət dövriyyəsinin artırılması sahəsində görülən işlərə dair fikirlərini bölüşüb, iki ölkə arasında qardaşlıq əlaqələrindən danışıblar. Əlaqələrin daha da genişləndirilməsi istiqamətində görüləcək işlərin müsbət nəticə göstərəcəyini qeyd ediblər.

Görüşdə çıxış edən digər qonaqlar iki ölkə arasında iqtisadi sahədə inkişaf perspektivləri, dövlət və özəl sektor arasında əməkdaşlıq imkanları, münbit investisiya mühiti, birgə layihələrin həyata keçirilməsi barədə fikirlərini bölüşüblər.

Tədbirdən sonra İqdır Ticarət və Sənaye Palatasının rəhbəri Kamil Arslan və Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kayadan görüşün mahiyyəti və əhəmiyyəti barədə fikirlərini öyrəndik.

***Asip Kaya – Türkiyənin Naxçıvandakı Baş konsulu:*** – Bu gün



İqdır Ticarət və Sənaye Palatasını Naxçıvanda qonaq etdik. Kamil Arslan bəyin 12 nəfərdən ibarət heyəti Naxçıvanı ziyarət etdi. Bu ziyarəti uzun müddətdir, planlayırdıq, amma müxtəlif səbəblərə görə reallaşdıra bilməmişdik. Bu görüş üçün böyük məmnuniyyət hissi keçirirəm. Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüşdük. Sonra ixracat məhsullarının sərgiləndiyi Naxçıvan Biznes Mərkəzini gəzdik. İqtisadiyyat naziri ilə çox məhsuldar bir görüşümüz oldu. Mənim məqsədim Naxçıvanla İqdır arasında, xüsusilə sərhəd ticarətinin inkişafına dəstək göstərməkdən ibarətdir. Bu anda olan ticarət gərəkli qədər gözlədiyimiz qədər sıx deyil. Keçən il, təqribən, 100 milyon dollara yaxın idi ticarət həcmi, amma potensiala baxanda, əslində, bu o qədər də yüksək məbləğ deyil. “Bu məbləği necə artırmaq olar?” məqsədilə İqdır Ticarət və Sənaye Palatası heyəti Naxçıvana gəldi və səmərəli söhbətlər aparıldı. İrəlidə hansı məhsuldar addımlar atmaq olar, ticarətimizi, mədəniyyətimizi, sosial münasibətlərimizi birgə daha necə inkişaf etdirə biləcəyimiz barədə müzakirələr apardıq. İnanırıq ki, yaxın zamanda bu görüşlərin müsbət nəticələrini əldə edəcəyik.

***Kamil Arslan – İqdır Ticarət və Sənaye Palatasının rəhbəri:*** – Baş Konsulluğun dəstəyi ilə bu gün Naxçıvandayıq və bundan məmnunuq. Uzun müddətdir ki, Naxçıvanla ticarət əlaqələrimiz çox zəif idi. Ümumiyyətlə, Naxçıvanla İqdır arasında idxal, ixrac sərhəd ticarəti haqqında danışdıq. Bundan sonrakı dövrdə burada bir komissiya yaradılacaq. İdxalda və ixracda komissiyanın dəyərləndirdiyi çatızmazlıqlar daha şəffaf görünəcək. Əlimizdən gəldiyi qədər çalışacağıq ki, çatışmazlıqları aradan qaldıraq. Bundan sonra ticarət əlaqələrimizin daha da inkişaf edəcəyinə ümidvaram. Səlahiyyətli nümayəndə ilə görüşdə səmimiyyətlə qarşılandıq. Hazırda İqdırla Naxçıvan arasında olan ticarət əlaqələri və mövcud problemlərlə bağlı söhbətimiz oldu. Müzakirələr zamanı həll nöqtəsi olaraq komissiya yaradılmasına dəstək göstəriləcəyini və verilən təkliflərin dəyərləndiriləcəyini və həll yönümlü qərarların veriləcəyini söylədi. Bu bizim üçün çox önəmlidir.

**✍ Gülcamal TAHİROVA**

## Təsərrüfat sahibləri ilə görüş

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin vəzifəsini müvəqqəti icra edən, nazir müavini Xəyalə Dadaşova Culfa Rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyevin iştirakı ilə Culfa rayonda təsərrüfat sahibləri ilə görüşüb.



Görüşdə nazir müavini Xəyalə Dadaşova ölkə başçısı cənab İlham Əliyevin aqrar sahəyə göstərdiyi diqqət və qayğıdan, bu sahənin inkişafı istiqamətində qəbul edilmiş qərarlardan, verilən subsidiyaların əhəmiyyətindən danışıb. Muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində görüləcək tədbirlər barədə təsərrüfat sahiblərinə məlumat verib.

Görüş zamanı təsərrüfat sahiblərinin qaldırdıqları məsələlər, əsasən, təsərrüfat suyu ilə təminat, mütərəqqi suvarma sistemlərinin lizinq yolu ilə əldə olunmasına köməkliklərin göstərilməsi, yaylaq bölgüsünün düzgün aparılması, heyvandarlığın və damazlıq quşçuluğun inkişafına kreditlərin ayrılması və digər məsələlərlə bağlı olub. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərlərinin isə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Tədbirdən sonra Culfa rayonu ərazisində əkinçilərlə söhbət aparılıb və taxıl əkini sahələrinə baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Kənd turizminin inkişafı məqsədilə maarifləndirici tədbir keçirilib



Ordubad rayonunun Biləv kəndində kənd turizminin inkişafı məqsədilə Ordubad rayon Biləv kənd sakinləri ilə görüş keçirilmişdir. Tədbirdə çıxış edən Ordubad Rayon İcra Hakimiyyəti başçısının Biləv kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi İqbal Hüseynov bildirmişdir ki, geniş yayılmış kənd turizmi üçün muxtar respublikanın bütün kəndlərində müasir tələblərə cavab verən yüksək şərait vardır. Tarixinin qədimliyi, təbiətinin rəngarəngliyi, mətbəxinin zənginliyi və insanların qonaqpərvərliyi kimi müsbət keyfiyyətləri bu kəndlərdə kənd yaşıl turizminin geniş inkişaf imkanlarından xəbər verir.

Daha sonra Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru Saleh Quluyev çıxış edərək bildirmişdir ki, muxtar respublikada dövlət səviyyəsində turizm sahəsinə göstərilən diqqət və qayğı bu sahənin inkişafına əsaslı təsir etmişdir. Qədim diyarın Biçənək, Kükü, Ağbulaq, Nursu, Keçili, Xanəgah, Dırnıs, Anaqut, Nəsirvaz, Bist, Tivi, Şahbulaq, Gümüşlü, Ərəfsə və başqa yaşayış məntəqələri kənd yaşıl turizminin inkişafı üçün səciyyəvi xüsusiyyətlərə malikdir.

Məruzəçi kənd sakinlərinin diqqətinə çatdırmışdır ki, kəndlərdə kirayə verilən evlərin siyahısı və fotoları Naxçıvan Turizm İnformasiya Mərkəzinin internet saytında “Hostellər və kirayə verilən evlər” bölməsində yerləşdirilir. Həmçinin bu bölmədə kirayə verilən obyektin tipi, yerləşdiyi rayon və kənd, sahibkarın əlaqə nömrələri, obyekt haqqında ətraflı məlumat və digər qeydlər yer alır. Bütün bu məlumatların yerləşdirilməsi nəticəsində internet üzərində axtarış edən qonaqlar tərəfindən, kənd evlərinin sahibləri ilə birbaşa əlaqə yaratması imkanı yaranır.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Turizmin İnkişafı və Təbliği sektorunun baş məsləhətçisi Elşən Mehralıyev çıxış edərək bildirmişdir ki, son illər bütün dünyada olduğu kimi, muxtar respublikada da kənd turizmi geniş vüsət alıb.

Məruzəçi qeyd etmişdir ki, dövlət tərəfindən kənd turizminin inkişafına göstərilən diqqət və qayğının nəticəsidir ki, son dövrlər muxtar respublikada müxtəlif istirahət mərkəzləri istifadəyə verilir. Ötən ilin may ayında açılış mərasimi keçirilən Ordubad rayonunun Anaqut kəndində “Xan Çinar” istirahət mərkəzi və Culfa rayonunun Ləkətağ kənd sakininin kənddə Əlincə çayının keçdiyi ərazidə – çay sahilində yaratdığı kiçik bir istirahət kompleksində yerli və əcnəbi turistlərə müxtəlif xidmətlər göstərilir.

Sonda sakinləri maraqlandıran suallar cavablandırılmış və bukletlər təqdim olunmuşdur.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Dövlət Universitetində 2022-2023-cü tədris ilində universitet üzrə keçirilmiş təcrübələrin yekun konfransı keçirilib.*

## Pedaqoji və istehsalat təcrübələrinin yekun konfransı olub



Konfransdan öncə İncəsənət fakültəsinin sərgi salonunda təcrübəçi tələbələrin təcrübə ərzində qazandıqları uğurların əks olunduğu stendə baxış olub. Təcrübə kitabçaları, hesabatlar, verilən təşəkkürnamələr, Texnologiya müəllimliyi ixtisası üzrə tələbələrin hazırladıqları əl işləri təqdim edilib.

Universitetin rektoru, dosent Elbrus İsayev çıxış edərək tələbələrin qazandıqları təcrübənin onların gələcək peşə karyerasında inkişafına müsbət təsirindən danışıb. Rektor ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncamla təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası istiqamətində gələcək fəaliyyət planını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Rektor ali təhsil ocağına göstərilən etimadı yüksək qiymətləndirərək qeyd edib ki, təhsilə qayğı, xalqımızın səadətli gələcəyinə sərmayə deməkdir. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər, Prezident cənab İlham Əliyevin bu amili dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsi, təhsil işçilərinə hərtərəfli qayğı göstərilməsi dövlətin gələcəyinə daha etibarlı və inamlı görmək əzmindən xəbər verir. Yeni Dövlət Proqramı muxtar respublika ictimaiyyəti, Naxçıvan Dövlət Universitetinin kollektivi tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır və şübhəsiz ki, bu mühüm dövlət sənədi təhsil, təlim-tərbiyə işinin daha da yaxşılaşmasına öz töhfəsini verəcək.

Rektor əminliklə qeyd edib ki, Azərbaycan təhsil tarixində ilklərə imza atan Naxçıvan Dövlət Universiteti Dövlət Proqramının icrası istiqamətində əzmlə fəaliyyət göstərəcək.

Təcrübə və məzunlarla iş bölməsinin müdiri Aynurə Seyidova “Təcrübələrin yekunlarına dair” adlı məruzəsində 2022-2023-cü tədris ilində Naxçıvan Dövlət Universitetində təcrübələrin tədris planına uyğun şəkildə aparıldığını, universitetdə təhsil alan tələbələrin bu müddətdə ali məktəbin əməkdaşlarının, eləcə də tam orta məktəblərin qabaqcıl müəllimlərinin rəhbərliyi altında nəzəri biliklərini məktəblərdə keçirilən təcrübələrdə layiqincə tətbiq etdiklərini bildirib.

Qeyd olunub ki, 2022-2023-cü tədris ilində 397-si pedaqoji, 442-si istehsalat təcrübəsi olmaqla, ümumilikdə, 839 tələbə Naxçıvan şəhərindəki 16 tam orta məktəbdə və Babək rayonunun Şıxmahmud kənd tam orta məktəblərində təcrübədə olub. Diqqətə çatdırılıb ki, təcrübə müddətində tələbələr 101-dən çox müxtəlif məzmunlu tərbiyəvi tədbirin təşkilatçılığını ediblər.

Sonra fakültələr üzrə təcrübələrin yekununa dair hesabatlar dinlənilib.

Sonda pedaqoji və istehsalat təcrübələrini əks etdirən videoçarx nümayiş olunub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi, əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi, yoxsulluğun aradan qaldırılması dövlətimizin əsas prioritet istiqamətlərindən biridir. Ölkəmizin inkişaf strategiyasına əsasən əhalinin sosial müdafiə və sosial təminat xərclərinin, o cümlədən yoxsulluğun səviyyəsinin azaldılmasında müstəsna əhəmiyyət kəsb edən minimum əməkhaqqının, sosial müavinətlərin və digər sosial təyinatlı xərclərin mütəmadi olaraq artırılması qarşıya qoyulan əsas vəzifələrdəndir. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, dövlətin apardığı siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bəli, bunu hər addımda duymaq çətin deyil.*

# Sakinlərə şəffaf, operativ, nəzakətli qaydada xidmətlər göstərilir



İstər ölkəmizdə, istərsə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda əhaliyə müxtəlifyönlü xidmətlərin göstərilməsi və vətəndaşların qarşısında olan çətinliklərin operativ şəkildə həll olunması baxımından bir sıra addımlar atılır. Bu cəhətdən yaradılan "ASAN xidmət" mərkəzləri mühüm əhəmiyyət kəsb edir. Mərkəzlərin yaradılmasında məqsəd vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azaldılmasından, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olmaqdan, peşəkarlıq səviyyəsinin, şəffaflığın artırılmasından, dövlət strukturlarına etimadın daha da gücləndirilməsindən, innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsindən, elektron xidmətlərdən daha geniş istifadə olunmasından ibarətdir. Mərkəzlərdə vətəndaşlara daha yaxşı xidmət göstərilməsi üçün yeni üsullardan və müasir innovasiyalardan istifadə olunur.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzi ilk dəfə olaraq Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli Fərmanı ilə yaradılıb. Bu yaxınlarda istifadəyə verilən Naxçıvan "ASAN xidmət" mərkəzi, ümumilikdə, respublika üzrə 26-cı mərkəzdir. Mərkəzin tikintisinə 2020-ci ildə başlanılıb, 2023-cü ilin may ayında inşası başa çatdırılıb.

Məlumat üçün qeyd edək ki, "ASAN xidmət" mərkəzində videomüşahidə, görüntüləmə və videonövbə sistemləri, 2 ədəd lift, yanğınsöndürmə sistemi, mərkəzləşdirilmiş havalandırma, istilik sistemi, generator UPS quraşdırılıb. Muxtar respublikada qeydiyyatda olan 465 min vətəndaşın istifadə etdiyi mərkəz ərazi məhdudiyyəti qoyulmadan fəaliyyətini günün tələbləri səviyyəsində qurur. Mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 360-dan çox xidmət həyata keçirilir.

Bu günlərdə qapılarını muxtar respublika sakinlərinin üzünə açan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Naxçıvan "ASAN xidmət" mərkəzində vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaş pasportlarının verilməsi, dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti ilə bağlı, arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, arxiv sənədlərinin təsdiq olunmuş surətlərinin verilməsi, gömrük işi sahəsində xidmətlərin göstərilməsi, yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında və digər xidmətlər "ASAN xidmət" əməkdaşları tərəfindən öz həllini tapmaqdadır. Ən əsası xidmətlərin operativ şəkildə yoluna qoyulması üçün vətəndaşlara hərtərəfli dövlət qayğısı göstərilir. "ASAN xidmət" mərkəzində əhaliyə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, dövlət qulluqçusuna edilmiş müraciətlərin operativ şəkildə həllini tapması istiqamətində mühüm işlər həyata keçirilir.

Mərkəzin açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev jurnalistlərə müsahibəsində bildirib ki, Naxçıvan sakinlərinə şəffaf, operativ, nəzakətli qaydada xidmətlər göstəriləcək.

Ümumilikdə, burada 11 nazirlik, dövlət komitəsi, eyni zamanda bank, sığorta və digər funksional xidmətlər sakinlərin xidmətində olacaq. Bu da o deməkdir ki, vətəndaş üçün tələb olunan mütləq əksəriyyət dövlət xidmətləri "bir pəncərə" prinsipi ilə fəaliyyət göstərəcək.

Onu da deyək ki, mərkəzdə könüllülərdən ibarət əməkdaşlar da çalışır. Könüllü olmaq, könüllü olaraq iş həyatına atılmaq onların yaxşı niyyətlərindən xəbər verir. Çox xoşdur ki, gənclərimiz könüllü olaraq iş başına yollanırlar. Bunu biz 44 gün davam edən Vətən müharibəsində tam aydınlığı ilə görə bildik.





*Bir sözlə, yenicə fəaliyyətə başlayan mərkəzdə vətəndaş məmnunluğunu hiss etməmək mümkün deyil. Naxçıvan sakinlərinin çoxdandır, arzuladıqları ünvan artıq bir aya yaxındır ki, fəaliyyətə başlayıb. Qeyd edək ki, mərkəz həftəiçi şənbə və bazar günləri də daxil olmaqla nahar fasiləsi olmadan əhaliyə xidmət göstərir. Naxçıvan "ASAN xidmət" mərkəzi əməkdaşlarını bu mühüm məramа başlamaları münasibətilə təbrik edir, uğurlarının çox olmasını arzulayırıq!*

**Nuray ƏSGƏROVA**

# Naxçıvan idmanının tarixi nailiyyətləri



Ölkə başçısının rəhbərliyi ilə gənclər və idman sahəsində icra edilən dövlət siyasətinin əhatəliliyi və davamlılığı təmin olunur, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu Azərbaycançılıq prinsipi əsasında mühüm nailiyyətlər qazanılır. Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da gənc nəslin sağlam həyat tərzinə cəlbi, onların vətənpərvər ruhda formalaşdırılması, müxtəlif sahələrdə inkişafı istiqamətində məqsədyönlü addımlar atılır. Ötən ay ərzində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi geniş şəkildə qeyd olunub, bədən tərbiyəsi və idmanın inkişafı, gənclərin vətənpərvər ruhda formalaşdırılması, onların cəmiyyətdəki aktivliyini artırmaq və şəxsi inkişafına dəstək olmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilib, yeni nailiyyətlər qazanılıb.

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silsilə idman tədbirləri çərçivəsində şahmat, boks, voleybol, cüdo üzrə muxtar respublika miqyaslı yarışlar, nazirliklər arasında "Heydər Əliyev kuboku" uğrunda futzal turniri, Naxçıvan və Türkiyə alpinistlərinin iştirakı ilə Haçadağa ekstremal yürüş, "İdmanla bir gün" layihəsi əsasında açıq havada idman yarışları reallaşıb. Bakıdan gələn cüdo mütəxəssislərinin iştirakı ilə məşqçi, hakim və idmançılar üçün növbəti seminar təşkil edilib. 15 yaşadək futbolçuların muxtar respublika turniri yekunlaşıb, kadetlər arasında boks üzrə ölkə birinciliyinin zona yarışı keçirilib.

Albaniyanın Durres şəhərində keçirilən şahmat üzrə məktəblilərin Avropa çempionatında tarixi nəticə əldə olunub. Belə ki, 9 yaşlı idmançımız Yasin Əzimov çempionluq sevinci yaşayıb, Mirsaleh Seyidli ikinci yerə sahib çıxıb. Türkiyənin İstanbul şəhərində kikboksinq üzrə "VIII Turkish Open WAKO World Cup" adlı turnirdə İnci Allahverdiyeva yeniyetmə qızların yarışında gümüş, Qənbər Nağıyev isə kişilər arasında bürünc medalçı olub. Kişilər və qadınlar arasında ağır atletika üzrə Azərbaycan çempionatında yeniyetmə idmançımız Həsən Babayev bürünc, Gülcahan Əliyeva gümüş, yeniyetmələrin atletika üzrə ölkə birinciliyində Aysu Abbasova bir qızıl və bir bürünc medal əldə edib. Bədii gimnastika üzrə 7-ci bölgələrarası kubok yarışlarında isə Nilufər Kərimli gümüş və İlay Sanqur bürünc mükafatçılar sırasına düşüb. Şərur Rayon Uşaq-Gənclər İdman Məktəbinin məşqçi-müəllimi Rəşad Heydərov Avropanın ali futbol qurumu – UEFA-ya məxsus "C" kateqoriyalı məşqçi adına layiq görülüb. Azərbaycan Futbol Federasiyaları Assosiasiyası Lisenziya Komissiyasının iclasında Azərbaycan Premyer Liqasında iştirak üçün "Araz-Naxçıvan" PFK-nın müraciəti dəyərləndirilərək kluba çempionatda iştirak hüququ verilib. Bundan əlavə, I Divizionda vaxtından əvvəl çempionluq qazanan komandamız öz meydanında keçirdiyi sonuncu liqa matçından sonra mükafatlandırılıb. Şərurun "Arpaçay" klubu isə tarixində ilk dəfə olaraq bu mövsüm AFFA Region Liqasının bürünc medallarını qazanıb.

"Heydər Əliyev İli" ilə əlaqədar gənclər arasında "Xəmsə", "Nə? Harada? Nə zaman?" intellektual oyunları, tarixi həqiqətlərin gənclər arasında təbliği məqsədilə "Qayıdış: Qərbi Azərbaycan", "Müstəqilliyimiz əbədidir!" adlı tədbirlər keçirilib. Bakı şəhərindən gələn tanınmış təlimçilər Orxan Şahbaz və Nurlan Həsənsoyun iştirakı ilə "Özünü formalaşdırmanın prinsipləri" mövzusunda təlim, gənclər üçün "Sağlam ailə sağlam gələcəkdir", Naxçıvan şəhəri, Culfa və Şərur rayonlarında ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün "Düzgün ixtisas seçimi uğurlu karyeranın təməlidir" adlı seminarlar keçirilib. Şəhid ailələrinin ziyarət olunması ənənəsini davam etdirən gənclər bu məqsədlə Şərur və Şahbuz rayonlarına gediblər. Ordubad şəhər tam orta internat məktəbinin "Xətailər" komandası "Sərhəd" hərbi-idman oyunu üzrə ölkə birinciliyinin qalibi olub. Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinə ithaf olunan "Qəhrəmanlar unudulmur!" adlı videoçarxların yayımı davam etdirilib. Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Vətən naminə" hərbi-idman oyunu keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı Ülvi Əliyev və nazirliyin könüllüsü Nicat Hüseynli də Azərbaycan nümayəndə heyətinin tərkibində Türkiyədə reallaşan "Qardaş köməyi" layihəsində iştirak ediblər. Avropa Hüquqşünas Tələbələr Assosiasiyası (ELSA) Azərbaycan nümayəndəliyinin VII Milli Şura Toplantısında təşkilatın Naxçıvan nümayəndəliyinin yaradılması ilə bağlı qərar qəbul olunub.

Ay ərzində muxtar respublikanın bölgələrində müxtəlif idman növləri üzrə rayon (şəhər) birincilikləri, intellektual oyunlar, vətənpərvərlik motivli film nümayişləri, yaradıcılıq müsabiqələri, "Heydər Əliyev İli", Müstəqillik Günü və şəhidlərimizin xatirəsinə həsr olunan tədbirlər təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Mədəniyyət müəssisələrinə işə qəbul üzrə müsabiqənin müsahibə mərhələsi başa çatıb



345 vakant vəzifənin çıxarıldığı müsabiqənin test mərhələsində qeydiyyatdan keçən 192 namizəddən 138-i imtahanda iştirak edib. Onlardan 90 namizəd keçid balını toplayıb. Qabiliyyət tələb edən vəzifələr üzrə 45 namizəd isə birbaşa müsahibə mərhələsində iştirak hüququ qazanıb.

Müsahibə mərhələsində namizədlərin praktiki hazırlığı və peşəkarlıq qabiliyyəti yoxlanılıb. Müsahibə komissiyası namizədlərin ixtisas bacarığını müvafiq meyarlar üzrə 5 ballıq sistem əsasında qiymətləndirib. Müsahibədə 12 və ya daha çox bal toplamış namizəd bu mərhələdən keçmiş sayılır. Müsahibə mərhələsində iştirak edən 125 namizəddən 81-i keçid balını toplayıb və müvafiq vəzifələrə təyin olunmaq üçün imtahan nəticələri nazirliyə təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

# İrandan Naxçıvana 31 kiloqram narkotik keçirilməsinin qarşısı alınıb



İyun ayının 6-da saat $23^{20}$-də Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının Ordubad rayonunun Kotam kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadının sayıqlığı nəticəsində narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə İrandan Azərbaycana keçirilməsinin qarşısı alınıb.

Bu barədə DSX-nin Mətbuat Mərkəzindən məlumat verilib.

Bildirilib ki, ümumi çəkisi 31 kiloqram narkotik vasitə aşkar olunaraq götürülüb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 375